Hürriyyət

Yaddaş

14 sentyabr / 2021



# Qərbi Azərbaycanın Türk-Müsəlman əhalisinin II Dünya müharibəsində iştirakı



**III YAZI**

1939-cu ildə Sovet-Fin müharibəsinin başlanması ilə SSRİ üzrə ümumi səfərbərliyə başlandıqda Qərbi Azərbaycanın Türk-müsəlman əhalisi də kənarda qalmamışdır. Bu tədbirdə bölgənin Qafan nahiyəsinin Türk kökənli kəndlərinin əhalisi də iştirak etmiş, yüzlərlə soydaşımız cəbhəyə yola düşmüş, daha sonra 1941-1945-ci illərdə də hərbi-döyüş xidmətlərini yerinə yetirmişlər.

1940-cı illərdə Qafan nahiyəsində "yüz evli" adlanan Yuxarı Gilətağ kəndindən Sovet-Fin müharibəsində vuruşan Şamxal Qara oğlu Abbasov (1917-1996) həm də Ukrayna, Polşa və Macarıstanda partizan hərəkatının iştirakçısı olub, Berlin şəhəri uğrunda döyüşlərdə iştirak edib.

Müharibə iştirakçısı Abşeron rayonu, Mehdiabad qəsəbəsində yaşayıb və orada vəfat edib.

Yuxarı Gilətağ kəndinin II Dünya müharibəsində iştirak edən sakinlərindən geri qayıtmayanlar da az olmayıb, onları tanıyaq:

-Hüseyn Süleyman oğlu Bünyadov, 1911, Ağacıqlı tayfasından, yaralanaraq kəndə 1943-cü ildə qayıdıb, 10 gün qaldıqdan sonra yenidən cəbhəyə yola düşüb, 1 qızı, 2 oğlu qalıb;

-Şərif Allahverdiyev, Allahverdiuşağı tayfası, 4 qızı, 3 oğlu qalıb;

-Baxış Heydər oğlu Babayev, Molla Babalılar tayfası, subay;

-Ələsgər Almurad oğlu Məmmədov, Molla Babalılar tayfası, subay;

-İbiş Əbilov, Molla Babalılar tayfası, 1 qızı, 2 oğlu qalıb;

-Əsəd, başqa yerdən bu kəndə gəlib Qızlarxanım Almurad qızı (1882-1972) ilə evlənmişdir, 1 oğlu qalıb;

-Səlim Heydər oğlu Heydərov, Molla Babalılar tayfası, subay;

-Murad Nuru oğlu Nuruyev, Əsədli tayfası, 1 qızı qalıb;

-Məhiş Cavad oğlu Nuruyev, Əsədli tayfası, subay;

-Abbas Qara oğlu Abbasov, subay;

-Mirzəli Kəlbalı oğlu Baxşalıyev, Murtuzalılar tayfası, subay;

-Yaqub Həsənqulu oğlu Yaqubov, Murtuzalılar tayfası, subay;

-Musa Məmmədov, kolxoz sədri işləyib, Ağacıqlı tayfası, 2 oğlu, 3 qızı qalıb;

-Həbib Baxış oğlu İsmayılov, Molla Babalı tayfası, 1 qızı, 4 oğlu qalıb (görkəmli şair Hafiz Baxışın (1932-1989) atası), 1950-ci illərdə onun Türkiyə Cumhuriyyətində yaşadığı bildirilib;

-Həbib Baxşalı oğlu, Məmmədli tayfası, 1 qızı qalıb;

-Ramazan Xanqulu oğlu Əzizov, Məmmədli tayfası, 3 qızı, 1 oğlu qalıb;

-Ələkbər Məmmədcəfər oğlu Məmmədov, Cəfərli tayfası, 1 qızı qalıb;

-Nəbi Məmmədcəfər oğlu Məmmədov, Cəfərli tayfası, 1 qızı qalıb;

-Əmrah Cəfərov, Cəfərli tayfası, 2 oğlu, 4 qızı qalıb;

-Mustafa Vəliyev, Cəfərli tayfası, subay;

Yuxarı Gilətağ kəndinin 1941-1945-ci illər müharibəsi veteranları:

-Rəcəb Süleyman oğlu Bünyadov (1904-1974), rus dili müəllimi işləyib, Ağacıqlı tayfası;

-Allahverdi Ağakişi oğlu Allahverdiyev (1907-1982), Molla Babalı tayfası, Sumqayıt şəhərində yaşayıb;

-Səməd Hüseyn oğlu Bəbirov (1920-2004), Bəbirli tayfası, Abşeron rayonu, Məhəmmədli kəndində yaşayıb;

-İsmixan Heydər oğlu Heydərov (1899-1984), Murtuzalılar tayfası, Sumqayıt şəhərində yaşayıb;

-Musa Xəlil oğlu Abıyev (1894-1979), Məmmədli tayfası, Sumqayıt şəhərində yaşayıb;

-Əlixan Abış oğlu Nazaralıyev (1880-1970), Ağacıqlı tayfası, Binəqədi rayonu, Sulutəpə qəsəbəsində yaşayıb;

-Həsənalı Baxşalı oğlu (1898-1973), Ağacıqlı tayfası, Bakı şəhərində yaşayıb;

-Xudabaxış Cabbar oğlu (1894-1981), Ağacıqlı tayfası;

-İzzət Adıgözəl oğlu Abışov (1896-1986), Ağacıqlı tayfası, Abşeron rayonu, Xırdalan şəhərində yaşayıb;

Yuxarı Gilətağ kəndindən 3 km məsafədə yerləşən Aşağı Gilətağ kəndinin (35-40 evli) sakinlərindən də II Dünya müharibəsi iştirakçıları olmuşdur. Həmin müharibədən qayıtmayanlar aşağıdakılar idi:

-İsrafil Qara oğlu Rzayev, Məşədi Gülməmmədli tayfası, subay;

-Məmmədqulu Qara oğlu Rzayev, Məşədi Gülməmmədli tayfası, subay;

-Xudabaxış Cəfərqulu oğlu Rzayev, Məşədi Gülməmmədli tayfası, subay;

-Yusub Kərbəlayı Məmməd oğlu Məmmədov, Pirməmmədli tayfası, 2 oğlu qalıb;

-Seyfəli Salman oğlu Qəribov, Pirməmmədli tayfası, evli idi;

-Babış Babayev, Babaylı tayfası, 2 oğlu, 1 qızı qalıb;

-Xanəli Novruzəli oğlu Rzayev, Məşədi Gülməmmədli tayfası, 1 oğlu qalıb;

-Həsi Süleyman oğlu Qəribov, Pirməmmədli tayfası, 1 qızı, 1 oğlu qalıb;

-Salman Cəfərov, Məşədi Gülməmmədli tayfası, subay;

Aşağı Gilətağ kəndinin müharibə veteranları:

-Əli Məmməd oğlu Qarayev (1902-1977), Pirməmmədli tayfası;

-Hüsü Məmməd oğlu Qarayev (1904-1982), Pirməmmədli tayfası;

-Yusubəli Hümbətəli oğlu Heydərov (1909-1982), Pirməmmədli tayfası;

-Rəsul Qara oğlu Rzayev (1885-1955), Məşədi Gülməmmədli tayfası

***P.S.*** *Qərbi Azərbaycanın Qafan nahiyəsinin Yuxarı Gilətağ kənd sakini, baş leytenant Mədət İsa oğlu Bəbirov (1967-1994) I Qarabağ müharibəsində (1988-1994) Tərtər rayonu ərazisindəki ağır döyüşlərdə yaralanaraq əsgərlərinin geri çəkilməsi hesabına düşmə tərəfindən əsir alınmış, amma bu vaxtadək onunla bağlı düşmən tərəf heç bir məlumat verməmişdir.*

***P.S.S.*** *Yuxarı Gilətağ kənd sakini 23 yaşlı Fazil Maşallah oğlu Abışov Sovet Ordusunun əsgəri kimi Əfqanıstan müharibəsində 1983-cü ildə faciəli surətdə həlak olmuş, Xırdalan şəhər qəbiristanlığında dəfn edilmişdir.*

*Həmkəndliləri F.Abışovun (1960-1983) xatirəsini əziz tutaraq ona ehtiram əlaməti olaraq kəndin quzeyində, 3 km aralıdakı Ərikli dağının ətəyində açıq sahədə çağlayan bulağın üstündə kompleks inşa etmişlər.*

**Qismət YUNUSOĞLU,**
**Bakı Dövlət Universitetinin müəllimi**

**Qeyd: Yazının hazırlanmasında Qərbi Azərbaycanın Qafan nahiyəsi, Yuxarı Gilətağ kənd sakini Famil Mustafa oğlu Bəbirovun (1936) və Aşağı Gilətağ kənd sakini Məhəmməd Əsim oğlu Məhiyevin (1935) məlumatlarından istifadə edilmişdir.**